# Şirvanda Vətən müharibəsi şəhidinin xatirəsi anılıb

**Şirvan şəhərindəki Şəhidlər xiyabanında şəhid Şəhriyar Əkbər oğlu İsmayılzadənin anım günü ilə bağlı tədbir keçirilib. Tədbirdə şəhər rəhbərliyi, hüquq-mühafizə orqanlarının, ictimaiyyətin nümayəndələri, şəhidin ailə üzvləri, müharibə iştirakçıları iştirak ediblər.**




Çıxış edən şəhər icra hakimiyyətinin başçısı İ.Abbasov Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun qüdrətindən söz açıb, tarixi qələbənin əldə olunmasında canından keçən bütün qəhrəman oğullarımızın xatirəsinin əbədi yaşayacağını qeyd edib. Şəhidlərin şərəfli döyüş yolunun gələcək nəsillərə nümunə olduğunu, xalqımızın mərd, vətənpərvər və qəhrəman oğulları ilə fəxr etdiyini vurğulayan ŞİH-in başçısı şəhid və qazi ailələrinə dövlət səviyyəsində göstərilən diqqət və qayğıdan danışıb, Şirvan şəhərində də hər bir şəhid ailəsinin və müharibə iştirakçısının probleminə həssaslıqla yanaşıldığını söyləyib.

Digər çıxış edənlər də 44 günlük Vətən müharibəsində əldə olunan tarixi Zəfərdən, şəhidlərimizin qəhrəmanlıq nümunələrindən, şəhid ailələri və qazilərə dövlət qayğısından söz açıblar.

Qeyd edək ki, şəhid Şəhriyar İsmayılzadə 1994-ci il iyulun 7-də Şirvan şəhərində anadan olub. Vətən müharibəsi zamanı Füzuli, Cəbrayıl, Xocavənd və Şuşa istiqamətlərində gedən döyüşlərdə iştirak edib, Zəfər Günü - noyabrın 8-də şəhidlik zirvəsinə ucalıb. Şirvan şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Ölümündən sonra Prezident İlham Əliyevin sərəncamları ilə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "Cəsur döyüşçü", "Hərbi xidmətdə fərqlənməyə görə", "Şuşanın azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunub.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 14 noyabr (№ 250).- S.24.